# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Ləğv olunmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Kollegiyasının qərarlarının ləğv edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Ləğv olunmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Kollegiyasının aşağıdakı qərarları ləğv edilsin:

1.1. “Müsahibənin nəticəsindən narazı qalan şəxslərin apellyasiya şikayətinə baxılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2016-cı il 5 fevral tarixli 4 nömrəli Qərarı;

1.2. “Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması üçün ehtiyat kadrların formalaşdırılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2016-cı il 5 fevral tarixli 6 nömrəli Qərarı;

1.3. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları”nın təsdiq edilməsi haqqında” 2016-cı il 5 fevral tarixli 7 nömrəli Qərarı.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 29 ” “ aprel ” 2026-cı il

№ 17